**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏFƏVİLƏR DÖVRÜ FİLOSOFU SƏDRƏDDİN ŞİRAZİ FƏLSƏFƏSİNDƏ NƏFS-BƏDƏN PROBLEMİ

İxtisas: 7214.01 – Dinin tarixi və fəlsəfəsi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **İbrahim Rəfail oğlu Bağırov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Ələddin Mehman oğlu Məlikov** |
| Rəsmi opponentlər: | fəlsəfə elmləri doktoru, professor<br>**Əyyub Sevdim oğlu Kərimov** |
| | ilahiyyat üzrə fəlsəfə doktoru, dosent<br>**Səbinə Həmid qızı Mirzəyeva** |
| | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Rübabə Bahadır qızı Şirinova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutu nəzdində fəaliyyət göstərən BFD 4.03 – Birdəfəlik Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri: ____________ | fəlsəfə elmləri doktoru, dosent<br>**Zəkiyyə Ağababa qızı Əbilova** |
| Dissertasiya Şurasının elmi katibi: ____________ | ilahiyyat üzrə fəlsəfə doktoru, dosent<br>**Məmmədəli Allahverdi oğlu Babaşlı** |
| Elmi Seminarın sədri: ____________ | fəlsəfə elmləri doktoru, dosent<br>**Lalə Cəfər qızı Mövsümova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Öyrənmə şüurlu varlıq olan insanın ilkin mənəvi ehtiyaclarından biridir. Bu istək olmadan bəşəriyyətin hazırkı mərhələyə çatması, dərk etdiyi xarici aləmi dəyişib yenidən qurması, bir sözlə, inkişaf etməsi, çətin ki mümkün olardı. İnsanın bilməyi arzuladığı düşüncə obyekti ancaq xarici dünya deyil. O həm də özünü tanımağı arzulayır. Fəlsəfə tarixinə nəzər saldığımız zaman insanın bu arzusunun çox qədim olduğunu görə bilərik. İnsanın mahiyyəti ilə bağlı suallar həm məişətdə, həm də akademik müstəvidə bəşər övladı üçün həmişə aktual olmuşdur. "İnsan nədir?" "O, sadəcə maddi bir varlıqdır, yoxsa ruhu da var?" "Əgər ruhu varsa, ruh nədir?" kimi özünü tanıma istəyindən doğan suallar hər zaman insanı məşğul etmişdir. Bu gün koqnitiv-neyroloji elmlərin də cavablandırmağa çalışdığı bu suallar yaxın keçmişə qədər əsasən fəlsəfənin predmeti hesab olunurdu. Fəlsəfədə insanı qeyri-maddi ruh və maddi bədəndən ibarət hesab edən dualist anlayışın isə dini-mistik cərəyanların təsiri nəticəsində ortaya çıxdığı güman edilir. Dini-mistik təlimlərdə fərdi ruhani təcrübə aparıcı rol oynadığına görə obyektiv olaraq əsaslandırılmamış, subyektiv mülahizələr üstünlük təşkil edirdi. Buna görə də sözügedən təlimlərdə bəzən ruha həddindən artıq əhəmiyyət verən, bədəni isə onun qarşısındakı maneə, "quş-qəfəs" bənzətməsində olduğu kimi, ruhun qəfəsi hesab edən, obyektiv reallıq ilə uzlaşmayan fikirlər irəli sürülürdü.[1] Fəlsəfə tarixində bu hala istisna təşkil edən nümunələrə rast gəlsək də, filosofların əksəriyyəti də insanı qeyri-maddi ruh, yəni nəfs və maddi bədəndən təşəkkül tapmış bir varlıq kimi görmüş, habelə insanın bütün mental (mənəvi) hallarını ruh fikri əsasında izah etməyə çalışmışlar. Müsbət elmlərlə sıx münasibətdə olan çağdaş idrak fəlsəfəsində (ing. philosophy of mind) isə bu dualist anlayış artıq əvvəlki qədər rəğbət görməyən və getdikcə sadəcə fəlsəfə tarixinə aid bir nəzəriyyə kimi nəzərdən keçirilən bir anlayışdır. Bu gün idrak fəlsəfəsində üstün tutulan əsas yanaşma isə materializm və ya fizikalizmdir. Materializmə görə, kainatda yalnız bir cür, maddi

[1] Bünyadzadə, K. Sufi fenomenologiya: [2 cilddə] / K. Bünyadzadə, – Bakı: "Zərdabi Nəşr" MMC, – c. 1. – 2023. – s. 45-46.

substansiya mövcuddur. Zehin, şüur və insanın bütün digər qeyri-maddi hesab edilən halları da hansısa formada fiziki fenomenlər olub materiya əsasında izah oluna bilər. Başqa sözlə, materializmə görə, insanın zehni halları onun beyninin fiziki halları ilə eynilik təşkil edir.[2] Ancaq materializmin bu mövqeyini sübuta yetirəcək əsaslı elmi və fəlsəfi dəlil yoxdur. Beyində gedən maddi proseslərin nəticəsi olaraq ortaya çıxdığı güman edilən, ancaq maddi aləmin sərhədlərini aşaraq ondan köklü surətdə fərqlənən və maddi, hissi idrak vasitələri ilə qavranılmayan idrak və ya şüur hadisələri nə elm, nə də elmə əsaslanan fəlsəfə tərəfindən izah edilə bilir.[3] Belə olduğu təqdirdə qeyri-maddi ruh və ya nəfs anlayışını sadəcə tarixi bir fenomen hesab etmək və bu düşüncəni müdafiə edən filosofların görüşlərini aktual hesab etməmək heç də ağlabatan deyil.

Bu baxımdan ruh məfhumunu qəbul edən filosofların əsərlərini tədqiq edib düşüncələrini öyrənmək insanın öz həqiqətinə dair axtarışlarında aktuallığını qoruyub saxlamaqdadır.

Qeyd etdiyimiz kimi, fəlsəfə tarixində insan əsasən qeyri-maddi ruh, yaxud nəfs və fiziki bədəndən ibarət mürəkkəb bir varlıq kimi nəzərdən keçirilir. Bu dualist anlayışın qarşısında duran əsas problem isə sözügedən iki zidd substansiya arasındakı əlaqənin təbiəti ilə bağlıdır. "Nəfs-bədən problemi" adlandırılan bu məsələ klassik nəfs nəzəriyyələrini sual altında qoyan əsas problemdir. Bizim hazırkı dissertasiyada fəlsəfi görüşlərini tədqiq etdiyimiz Sədrəddin Şirazi isə bu məsələyə dövrünün dualist filosoflarından fərqli, özünəməxsus tərzdə yanaşan bir filosofdur. O, özünün spesifik metafizikasına müvafiq olaraq nəfsi qəbul etməklə yanaşı, onu maddi bədəndən müstəqil bir varlıq hesab etmir. Qeyri-maddi nəfsi qəbul edən filosofa görə, nəfs maddi bədəndən təkamül edərək ruh məzmunu qazanır. Nəfs-bədən probleminə fərqli bir prizmadan yanaşan Şirazinin nəfs anlayışı modern idrak fəlsəfəsi baxımından da diqqətəlayiqdir. Buna görə də Şirazinin nəfs anlayışını nəfs-bədən problemi baxımından tədqiq etmək xüsusi aktuallıq kəsb edir.

---

2 Nagel, T. Bütün bunlar nə deməkdir? Fəlsəfəyə çox qısa bir giriş / T. Nagel, tərc. Emin İmanlı, – Bakı: Aqora fəlsəfə akademiyası, – 2023, – s. 57.

3 Xəlilov, S.S. Mənəviyyat fəlsəfəsi / S.S. Xəlilov, – Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, – 2007, – s. 40-41.

Digər tərəfdən islam fəlsəfəsinin tərkib hissəsi olaraq Səfəvilər dövrü fəlsəfəsinin və bu fəlsəfəyə aid olan filosofların yaradıcılığının tədqiqi islam fəlsəfəsinin XII əsrdən sonrakı inkişafına dair mövcud bəzi yanlış təsəvvürlərin düzəldilməsi baxımından da aktualdır. Məlum olduğu kimi XIX əsrdən səsləndirilməyə başlayan və hələ də ədəbiyyatlarda təsirini qoyan bəzi oriyentalist iddialara görə fəlsəfə islam dünyasında XII əsrdən sonra süquta uğramış və ya orijinallığını itirərək təkrarçı ənənəyə çevrilmişdir. Səfəvilər dövründəki fəaliyyətlər isə bunun tam əksini göstərir. Beləliklə bu dövr fəlsəfəsinin əsas nümayəndələrindən olan və fəlsəfi problemlərə özünəməxsus yanaşmaları ilə seçilən Sədrəddin Şirazi fəlsəfəsinin tədqiqi bu yanlış fikirlərin aradan qaldırılması baxımından da xüsusi aktuallıq kəsb edir. Eyni zamanda bu, İslam dünyasında rasional düşüncənin davamlılığının təmin edilməsində Səfəvilər dövlətinin əhəmiyyətini və rolunu da vurğulamış olacaq. Beləliklə, bu tədqiqat Səfəvi elm və fəlsəfə tarixinin öyrənilməsi istiqamətində də kiçik bir töhfə hesab edilə bilər.

Şərq (islam) fəlsəfəsinə və bu fəlsəfənin tərkib hissəsi olan Azərbaycan fəlsəfəsinə dair Azərbaycanda hələ sovet dövründən bəri fundamental tədqiqatlar aparılmışdır. Bu dövr tədqiqatçıları arasında Zümrüd Quluzadənin,[4] Solmaz Rzaquluzadənin[5] və Zakir Məmmədovun[6] adını xüsusilə qeyd etmək lazımdır. Bunlardan Zakir Məmmədov "Azərbaycan fəlsəfəsi tarixi"[7] əsərində Səfəvilər dövrü fəlsəfəsindən də bəhs etmiş, İsfahan məktəbi nümayəndələri arasında adı çəkilən Rəcəbəli Təbrizinin yaradıcılığını tədqiq etmişdir.

Bu sahəyə aid son illərdə aparılan tədqiqatlar arasında isə Ağayar Şükürovun "Şərq fəlsəfəsi və filosofları"[8], Gövhər Baxşəliyeva və

---

[4] Кулизаде, З.А. Теоретические проблемы истории культуры Востока и низамиведение / З.А. Кулизаде – Баку: Elm və təhsil, – 2023. – 372 с.

[5] Рзакулизаде, С.Д. Мировоззрение Баба Кухи Бакуви / С.Д. Рзакулизаде – Баку: Элм, – 1978. – 93 с.

[6] Məmmədov, Z.C. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri / Z.C. Məmmədov, – Bakı: Azərnəşr – 1986, – 63 s.

[7] Məmmədov, Z.C. Azərbaycan fəlsəfəsi Tarixi / Z.C. Məmmədov, – Bakı: "Şərq-Qərb" – 2006, – 328 s.

[8] Şükürov, A.M. Şərq fəlsəfəsi və Filosofları / A.M. Şükürov, – Bakı: Əbilov Zeynalov və oğulları – 2005, – 668 s.

Əmmar Abbasovun həmmüəllifi olduqları "İslam ensiklopedik lüğət",[9] Könül Bünyadzadənin "İslam fəlsəfəsi: tarix və müasirlik",[10] Anar Qafarov və Aqil Şirinovun tərəfindən qələmə alınan "İslam fəlsəfəsi: orta əsrlər-modern dövr",[11] Elvüsal Məmmədovun "Orta əsr islam fikrində din və fəlsəfə"[12] və "İzahlı İslam fəlsəfəsi terminləri lüğəti"[13] kimi tədqiqat işlərini misal göstərmək olar. Dissertasiyanın mövzusu olan nəfs-bədən probleminə dair olan və ya bu mövzunun da müzakirə edildiyi əsərlərə misal olaraq isə Səlahəddin Xəlilovun "Mənəviyyat fəlsəfəsi"[14], Könül Bünyadzadənin "İnsan: Kamilliyin arxitektonikası"[15] və "Sufi fenomenologiya"sını[16] göstərə bilərik.

Şirazi fəlsəfəsinə dair tədqiqat işlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, Şirazi fəlsəfəsi azərbaycanlı tədqiqatçılar üçün tədqiqat obyekti kimi nisbətən yenidir və geniş tədqiqata cəlb olunmamışdır. Buna baxmayaraq, azərbaycanlı tədqiqatçılar tərəfindən Şirazi fəlsəfəsinin müxtəlif aspektlərinə dair bir neçə kitab və məqalə qələmə alınmışdır. Bunlara nümunə olaraq Vüqar İskəndərovun "Molla Sədra və mütəaliyə fəlsəfəsi"[17], Ələddin Məlikovun "İbn Rüşd, Sədrül-mütəəllihin Şirazi və Emanuel Kant dünyagörüşündə ağıl və iman"[18] və

---

[9] Baxşəliyeva, G.B., Abbasov, Ə.S. İslam. Ensiklopedik lüğət / G.B. Baxşəliyeva, Ə.S. Abbasov, – Bakı: "Elm", – 2013, – 656 s.

[10] Bünyadzadə, K. İslam fəlsəfəsi: tarix və müasirlik / K. Bünyadzadə, – Bakı: Çaşıoğlu, – 2010, – 154 s.

[11] Qafarov, A., Şirinov, A. İslam fəlsəfəsi: orta əsrlər-modern dövr / A. Qafarov, A. Şirinov, – Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2019, – 416 s.

[12] Məmmədov, E. Orta əsr islam fikrində din və fəlsəfə / E. Məmmədov, – Bakı: Nurlar, – 2019. – 232 s.

[13] Məmmədov, E. İzahlı İslam fəlsəfəsi terminləri lüğəti / E. Məmmədov, – Bakı: Nurlar – 2020. – 192 s.

[14] Xəlilov, S.S. Mənəviyyat fəlsəfəsi / S.S. Xəlilov, – Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, – 2007, – 520 s.

[15] Bünyadzadə, K. İnsan: Kamilliyin arxitektonikası / K. Bünyadzadə, – Bakı: Zərdabi LTD, – 2014, – 494 s.

[16] Bünyadzadə, K. Sufi fenomenologiya / K. Bünyadzadə, – Bakı: Zərdabi Nəşr, – 2023, – 413 s.

[17] İsgəndərov, V. Molla Sədra və mütəaliyə fəlsəfəsi / V. İsgəndərov, – Bakı: Victory, – 2012. – 208 s.

[18] ملک اف، ع. عقل و ایمان از دیدگاه ابن رشد، صدرالمتألهین شیرازی و ایمانوئل کانت / ع. ملک اف، – قم: مرکز بین المللی ترجمه و نشر المصطفی، – 1390. – 296 ص.

“İrfan və fəlsəfə perspektivindən kamil insan nəzəriyyəsi”[19] adlı əsərlərini göstərmək olar. Ə.Məlikovun İbn Ərəbi ilə Şirazinin kamil insan anlayışına dair fikirlərini müqayisə etdiyi “İrfan və fəlsəfə perspektivindən kamil insan nəzəriyyəsi” əsəri dissertasiyanın mövzusu baxımından daha əhəmiyyətlidir. Belə ki, adıçəkilən əsərdə müəllif Şirazinin nəfs-bədən münasibətinə dair fikirlərini də müzakirə etmişdir. Şirazi fəlsəfəsinə dair Azərbaycan dilində bir neçə məqalə qələmə alınsa da, nə Şirazi fəlsəfi psixologiyasına dair, nə də onun fəlsəfəsi ilə əlaqəli başqa bir mövzuda dissertasiya işi və ya bu səpkidə başqa bir tədqiqat işi qələmə alınmamışdır. Bu baxımdan hazırkı dissertasiyanın bu istiqamətdə yazılmış ilk tədqiqat işi olacağını qeyd edə bilərik.

Dünya miqyasında isə Sədrəddin Şirazi fəlsəfəsinə dair xeyli sanballı tədqiqat işinin həyata keçirildiyini demək mümkündür. Klassik dövr islam filosofları ilə müqayisədə daha az öyrənilsə də, günümüzdə Şirazi fəlsəfəsinin islam fəlsəfəsi tədqiqatçıları üçün getdikcə populyarlıq qazanan bir mövzu olduğunu iddia etmək olar. Şirazi Səfəvilər dövründən bəri İran, Əfqanıstan və Hindistan kimi Şərq ölkələrində tanınan bir filosof olmuşdur. İranın bu gün də Şirazi fəlsəfəsinin ən çox tədqiq olunduğu ölkə olduğunu deyə bilərik. Bu mənada Şirazinin adını daşıyan “Sədra islam fəlsəfəsi tədqiqat institutu”nun (SIPRIn) adını xüsusilə qeyd etmək lazımdır. Adı çəkilən tədqiqat institutu Şirazinin bütün əsərlərinin tənqidi nəşrini həyata keçirməklə yanaşı, beynəlxalq Şirazi konfrans və simpoziumlar silsiləsinin təşkili ilə onun dünyada tanıdılması istiqamətində də böyük işlər görmüşdür. Səfəvilər zamanından bəri İran fəlsəfi mühitində tədqiq və tədris edilən Şirazi fəlsəfəsinin son dövr iranlı tədqiqatçıları arasında Məhəmmədhüseyn Təbatəbai, Cəlaləddin Aştiyani, Mustafa Mühəqqiq Damad və çox sayda başqa müəlliflərin adlarını çəkə bilərik.

Qərbdə isə Sədrəddin Şirazi fəlsəfəsi əsasən XX əsrin ortalarından sonra diqqəti cəlb etməyə başlamışdır. Daha əvvəl Məhəmməd İqbal, Edvard Braun və Maks Hortenin tədqiqatları onu müəyyən qədər tanıtsa da, Şirazi tədqiqatlarına əsaslı zəmin hazırlayan Anri Korben olmuşdur. Səfəvi fəlsəfi mirasının Qərbdə tanıdılması və

---

[19] ملک اف، ع. نظریه انسان کامل از دیدگاه عرفان و فلسفه / ع. ملک اف، – قم: مرکز بین المللی ترجمه و نشر المصطفی، – 1390. –360 ص.

öyrənilməsində böyük xidmətləri olan Korbendən sonra Toşihiko İzitsu və Seyid Hüseyn Nəsr bu sahədə diqqətəlayiq işlər ortaya qoymuşlar. Bu sahədə tədqiqat işləri aparanlar arasında Şirazi fəlsəfəsi haqqında ingilis dilində ilk doktorluq dissertasiyasının müəllifi pakistanlı Fəzlur Rəhmanın, habelə əsasən ingilis dillində yazan İbrahim Kalın, Alparslan Açıkgenç, Süməyyə Parıldar, Məhəmməd Əbdülhaqq, Yanis Eşots, Zailan Moris, Məhəmməd Rüstəm, Məhəmməd Kamal, Eiyad əl-Kutubi, Səccad Rizvi, Sayə Meysəmi və başqa tədqiqatçıların adlarını çəkmək olar. F.Rəhman "Molla Sədra fəlsəfəsi",[20] Əl-Kutubi "Molla Sədra və Esxatologiya: varlığın təkamülü",[21] S.Meysəmi isə "Molla Sədra"[22] əsərində filosofun psixologiya anlayışına aid fəsillərdə nəfs-bədən probleminə dair fikirlərinə də yer vermişlər.

Şirazi fəlsəfi psixologiyasına dair yazılmış müstəqil tədqiqat işləri arasında isə Əbdüləziz Dəftərinin "Molla Sədra və nəfs-bədən problemi: Sədranın nəfs və ruh dixotomiyasına yanaşmasının tənqidi dəyərləndirilməsi"[23], Süməyyə Parıldarın "Molla Sədrada yönəlmə"[24], Sədat Baranın "Molla Sədrada psixologiya (Elmün-nəfs)"[25], Əhməd Pəhləvaniyanın "Molla Sədra perspektivindən nəfs-bədən rabitəsi"[26], Məhəmmədtəqi Yüsifinin "Molla Sədra və Kitab və sünnət perspektivindən nəfs-bədən rabitəsi"[27], İshaq Tahirinin "Aristotel, İbn

---

[20] Rahman, F. The philosophy of Mullā Ṣadrā (Ṣadr al-Dīn al-Shirāzī) / F. Rahman, – Albany: State University of New York Press, –1975. – 222 p.

[21] Al-Kutubi, E. S. Mulla Sadra and Eschatology: Evolution of Being / E. S. Al-Kutubi, – New York: Routledge, – 2015. – 147 p.

[22] Meisami, S. Mulla Sadra / S. Meisami, – Oxford: Oneworld Publications, – 2013. – 137 p.

[23] Daftari, A. Mulla Sadra and the mind-body problem: A critical assessment of Sadra's approach to the dichotomy of soul and spirit: / a thesis submitted for the degree of Doctor of Philosophy. / – Durham, 2010. – 303 p.

[24] Parıldar, S. Intentionality in Mullā Ṣadrā: / thesis for the degree of Doctor of Philosophy / – Exeter, 2014. – 271 p.

[25] Baran, S. Molla Sadrada Psikoloji: İlmun-nefs / S. Baran, – İstanbul: Ön Söz yayıncılık, – 2021. – 272 s.

[26] پهلوانیان, احمد. رابطه نفس و بدن از نظر ملاصدرا \ احمد. پهلوانیان، – قم: بوستان کتاب، – 1393. –232 ص.

[27] یوسفی، محمدتقی. رابطه نفس و بدن از دیدگاه ملاصدرا و کتاب و سنت \ محمدتقی. یوسفی، – تهران: انتشارات موسسه آموزشی و پژوهشی امام خمینی، – 1397. – 480 ص.

Sina və Sədrəddin Şirazi düşüncəsində nəfs və onun gücləri”[28], Məhəmməd Mirinin “Molla Sədra və İbn Ərəbidə nəfs-bədən əlaqəsi”[29] adlı dissertasiya və monoqrafiyalarını qeyd etmək olar. Ə.Dəftəri adıçəkilən doktorluq dissertasiyasında nəfs-bədən probleminə dair məsələləri tədqiq etsə də, onun əsas hədəfi nəfslə bədən arasındakı əlaqə deyil, nəfslə ruhun ayrılığını isbat etmək və Şirazinin bu mövzuya dair fikirlərini müzakirə etməkdir. Türkiyəli tədqiqatçı S.Parıldar isə Şirazidə modern idrak fəlsəfəsində ciddi araşdırma mövzularından olan yönəlmə (intensionallıq) problemi üzərində durmuşdur. Digər türkiyəli tədqiqatçı S.Baran “Molla Sədrada psixologiya (Elmün-nəfs)” əsərində Şirazinin psixologiyasını geniş şəkildə tədqiq etsə də, onun nəfs və bədən təsəvvürünü nəfs-bədən problemi prizmasından araşdırmır. İranlı tədqiqatçılar Ə.Pəhləvaniyan, M.Yüsifi, İ.Tahiri və M.Mirinin əsərlərində də Şirazinin nəfs təsəvvürü və onun bədənlə olan münasibəti geniş şəkildə öyrənilmişdir. Yuxarıda bəhs etdiyimiz tədqiqatlarla bağlı qeyd etdiyimiz kimi, İranda həyata keçirilən adlarını çəkdiyimiz işlərdə də Şirazinin nəfs və bədən anlayışı, habelə onların bir-biriləri ilə olan münasibətinə dair fikirləri, adətən, islam filosofları və Şiraziyə qədərki fəlsəfi düşüncə ilə müqayisədə öyrənilmişdir. Buna baxmayaraq, onun nəfs-bədən anlayışının idrak fəlsəfəsində müzakirə olunan qeyri-maddi nəfs və maddi bədənin münasibətinin imkansızlığına əsaslanan nəfs-bədən probleminin həlli baxımından nə vəd etdiyi və hansı problemlərlə qarşılaşdığı tədqiqata cəlb edilməmişdir.

Yuxarıda qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, bu mövzuda Azərbaycanda ilk dissertasiya işi olmaqla yanaşı, “Səfəvilər dövrü filosofu Sədrəddin Şirazi fəlsəfəsində nəfs-bədən problemi” mövzusundakı hazırkı tədqiqat işi yanaşma və problemin qoyuluşu baxımından xaricdə həyata keçirlimiş tədqiqat işlərindən də fərqlənir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Səfəvilər dövründə, XVII əsrdə yaşamış görkəmli islam filosofu Sədrəddin Şirazinin fəlsəfi psixologiyasıdır. Onun fəlsəfi psixologiyasının öyrənilməsi üçün tədqiqat işində filosofun “Əsfarül-

---

[28] طاهری، اسحاق. نفس و قوای آن از دیدگاه ارسطو، ابن سینا و صدرالدین شیرازی / اسحاق. طاهری، – قم: مؤسسه بوستان کتاب، – 1393. – 377 ص.

[29] میری، محمد. رابطه نفس و بدن از دیدگاه ابن عربی و ملاصدرا \ محمد. میری، – تهران: انتشارات موسسه آموزشی و پژوهشی امام خمینی، – 1397. – 184 ص.

ərbəə" əsəri başda olmaqla, "Şəvahidür-rübubiyyə", "Hikmətül-ərşiyyə" və digər fəlsəfi əsərləri əsas götürülmüşdür. Tədqiqatın predmetini isə Şirazi fəlsəfi psixologiyasında nəfs-bədən problemi, nəfsin varlığı, yaranması, bədənlə münasibəti, Şirazinin nəfs-bədən münasibətinə dair fikirlərinin nəfs-bədən problemi kontekstində qiymətləndirilməsi, dualizm və monizm prizmasından dəyərləndirilməsi kimi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Sədrəddin Şirazinin fəlsəfi psixologiyasında nəfs-bədən probleminin necə həll edilməyə çalışıldığını müəyyənləşdirmək və onun bu baxımdan dualizm, yoxsa monizmə daha yaxın olduğunu ortaya çıxarmaqdır. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

- Sədrəddin Şirazinin aid olduğu fəlsəfi mühitdən, onun həyat və yaradıcılığından bəhs etmək;
- Sədrəddin Şirazinin qurduğu fəlsəfi sistemin səciyyəvi cəhətlərini və əsas ideya qaynaqlarını işıqlandırmaq;
- Nəfs-bədən probleminin problematikasını aydınlaşdıraraq problemin yaranma tarixindən bəhs etmək və insanın həqiqətinə dair əsas fəlsəfi konsepsiyaları göstərmək;
- İslam dünyasında fəlsəfi psixologiyanın formalaşmasında əhəmiyyətli rol oynamış antik yunan düşüncəsinə aid filosofların nəfs təsəvvürlərini analiz etmək və bu düşüncə sistemində problemin qoyuluşunu müəyyənləşdirmək;
- Sədrəddin Şiraziyə qədər islam dünyasında fəaliyyət göstərmiş filosofların nəfs təsəvvürlərini analiz etmək və problemin onlar tərəfindən necə müzakirə olunduğunu təyin etmək;
- Sədrəddin Şirazi düşüncəsində fəlsəfi psixologiyanın yerini və əsaslandığı fəlsəfi prinsipləri işıqlandırmaq;
- Sədrəddin Şirazinin yaradılışca cismani, qalışca ruhani (cismaniyyətül-hüdus, ruhaniyyətül-bəqa) nəfs nəzəriyyəsinin mahiyyətini açıqlamaq, bu nəzəriyyə kontekstində onun nəfsin varlığının isbatı, tərifi, yaranması və qeyri-maddi substansiya olmasına dair fikirlərini öyrənmək;
- Sədrəddin Şirazinin tədricən mücərrədləşən nəfs nəzəriyyəsi kontekstində nəfslə bədənin münasibətinin necə izah edildiyini

öyrənərək bu izahın nəfs-bədən problemini həll edib-etmədiyini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı metodoloji baza olaraq təsviri-analitik, müqayisəli qarşılaşdırma, məntiqi deduksiya və tarixi yanaşma metodlarından istifadə edilmişdir. Məlumat bazası olaraq fərqli dillərdə yazılmış yerli və xarici qaynaqlardan istifadə edilməklə yanaşı, mümkün dərəcədə mövzuya dair ilkin və orijinal qaynaqlara müraciət edilməyə çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Sədrəddin Şirazinin fəlsəfi psixologiyasını nəfs-bədən problemi kontekstində öyrənən hazırkı tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Səfəvilər dövrü islam fəlsəfəsinin yaradıcı simalarının toplaşdığı İsfahan məktəbinin fəlsəfi dünyagörüşünün əsas ideya xətti olan islam düşüncəsindəki fərqli düşüncə məktəblərini birləşdirmək ideyasını reallaşdırmağa nail olan Sədrəddin Şirazi sadəcə zahiri sintezə nail olmaqla kifayətlənməmiş, bir sıra fəlsəfi problemlərlə bağlı fərqli yanaşma ortaya qoymuş, fəlsəfənin müxtəlif sahələrində orijinal fikirlər irəli sürmüşdür. Onun psixologiyaya (elmün-nəfs) dair görüşləri də bu qəbildən olub həlli imkansız hesab edilən nəfs-bədən probleminə fərqli perspektivdən yanaşma imkanı yaradır;
- Sədrəddin Şirazinin psixologiyaya dair düşüncələrinin ən orijinal və onu öncəki filosoflardan ayıran cəhəti nəfsin yaranması ilə bağlıdır. Nəfsin müstəqil və bədəndən öncə mövcud olduğunu hesab edən Platondan, onu maddə-forma münasibətindəki kimi bədənin forması hesab edən Aristoteldən, və ya yaranmış lakin yaranışında qeyri-maddi, müstəqil substansiya hesab edən İbn Sina və digər islam filosoflarından fərqli olaraq, Şiraziyə görə, nəfs yaradılışının əvvəlində maddi-cismani bir varlıqdır. O, bədəndə maddi forma olaraq yaransa da substantiv hərəkət nəticəsində ruhani (mənəvi) substansiyaya təkamül edərək ruh məzmunu qazanır;
- Sədrəddin Şirazi insanı bir-birindən müstəqil iki varlıq olan maddi bədən və ruhani nəfsdən ibarət mürəkkəb bir varlıq hesab etmir. Qeyri-maddi nəfsin varlığını qəbul etsə də, nəfs və bədəni yeganə ontoloji həqiqət olan insanın fərqli varlıq mərtəbələri hesab etdiyi üçün o, həqiqi dualist deyil və onun nəfs və bədənlə bağlı görüşü monizmə daha yaxındır;

- Sədrəddin Şirazi qeyri-maddi və maddi olmaqla, iki fərqli substansiyadan yaranmış müstəqil, statik varlıqlar olan nəfs və bədəndən ibarət insan konsepsiyasını qəbul etmədiyi üçün dualistlərin qarşılaşdığı maddi və qeyri-maddi şeylərin münasibətinin imkansızlığına əsaslanan nəfs-bədən problemi ilə qarşılaşmır;

- Sədrəddin Şirazi, ümumiyyətlə, qeyri-maddi və maddi varlıqların qarşılıqlı münasibətini deyil, qeyri-maddi varlıq olan nəfsin maddi varlıq olan bədənlə birləşib yeni bir növ olan insanı meydana gətirməsini qeyri-mümkün hesab edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycanda Sədrəddin Şirazinin fəlsəfi psixologiyasına həsr olunmuş fəlsəfə doktorluğu səviyyəsində ilk tədqiqat işi olmaqla elmi yenilik daşıyır. Mövzu dünya elmi mühitində tamamilə yeni olmasa da, problemin qoyuluş tərzi onu fərqləndirən mühüm cəhətdir. Belə ki, dissertasiya Şirazinin nəfs və bədən anlayışını açıqlamaqla kifayətlənməyərək onu nəfs-bədən problemi kontekstində müzakirəyə çıxararaq problemi həll edib etmədiyini müəyyənləşdirir. Yekun nəticədə müəyyən edilir ki, monist dünyagörüşə sahib olan Sədrəddin Şirazi özünəqədərki müsəlman filosoflardan fərqli olaraq nəfs-bədən problemindən böyük ölçüdə yayınan və obyektiv reallığa daha uyğun olan nəfs konsepsiyası irəli sürmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya, islam fəlsəfəsində yunan fəlsəfəsi təsiri ilə formalaşmış fəlsəfi psixologiyanın (elmün-nəfs) təkamülü, nəfs-bədən problemi kontekstində islam filosoflarının nəfs nəzəriyyələrinin və xüsusilə Səfəvi filosofu Sədrəddin Şirazinin bu problemə dair baxışlarının araşdırılması baxımından nəzəri əhəmiyyət kəsb edir.

Dissertasiya işində gəlinən nəticələr idrak fəlsəfəsinin əsas tədqiqat obyekti olan nəfs-bədən probleminin həllində Şirazinin fəlsəfi psixologiyasını alternativ həll yollarından biri kimi önə çıxardığı üçün bu sahənin tədqiqatçıları üçün, ümumiyyətlə isə islam fəlsəfəsi tədqiqatçıları üçün faydalı qaynaq olmaq kimi praktik əhəmiyyətə sahibdir. Bu baxımdan yeni aparılan araşdırmalarda qaynaq və aidiyyəti təhsil müəssisələrində tələbələr üçün tövsiyə edilən mənbə kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas

nəticələri və elmi-nəzəri müddəaları müxtəlif yerli və xarici elmi nəşrlərdə işıq üzü görmüş məqalələrdə, respublika və beynəlxalq səviyyəli elmi konfranslardakı məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi titul səhifəsi (354 şərti işarə), mündəricat (741 şərti işarə), giriş (17 851 işarə), üç fəsil (birinci fəsil üç paraqraf – 67 465 işarə; ikinci fəsil üç paraqraf – 93 212 işarə; üçüncü fəsil üç paraqraf – 96 124 işarə), nəticə (10 159 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından (35 139 işarə) ibarətdir. Dissertasiyanın ümumi həcmi (ədəbiyyat siyahısı istisna edilməklə) 285 906 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılaraq, işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar, işin elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi haqqında məlumat verilmiş, həmçinin işin yerinə yetirildiyi təşkilatın adı və dissertasiyanın struktur bölmələrinin ayrılıqda və ümumi həcmi işarə sayı ilə göstərilmişdir.

Üç fəsildən ibarət olan dissertasiyanın **"Sədrəddin Şirazinin mühiti, həyatı və fəlsəfəsi"** adlı **I fəsli** üç paraqrafdan ibarətdir.

**"Səfəvilər dövründə elmi-fəlsəfi mühit və rasional elmlərin intibahı"** adlanan birinci paraqrafda Sədrəddin Şirazinin yaşadığı dövrdə Səfəvilər dövlətində mövcud olan elmi-fəlsəfi mühit və dövrün fəlsəfi düşüncəsini xarakterizə edən İsfahan məktəbindən bəhs olunur.

Məlum olduğu kimi uzun müddət xüsusilə qərbli tədqiqatçılar arasında belə bir qənaət var idi ki, islam dünyasında fəlsəfi düşüncə İbn Rüşddən sonra zəifləyərək sona çatmışdır.[30] Sonralar bu fikri tamamilə

[30] De Boer, T. J. The History of Philosophy in Islam / T. J. De Boer, – New York: Dover Publications, – 1967. – 216 p.; Watt, W.M. Islamic Philosophy and

əsassız hesab edən[31] və ya tam doğru olmadığını bildirən[32] müəlliflər olduğu kimi, bu gün də XII əsrdən sonra islam fəlsəfi fikrinin eniş yolunu tutduğunu qəbul edən tədqiqatçılar mövcuddur. Tədqiqat işində vurğulanır ki, bəzi müəlliflərin də qəbul etdiyi kimi, sözügedən dövrdə islam dünyasında fəlsəfi düşüncə zəifləməkdən daha ziyadə şəklini dəyişmişdir. Belə ki, ilk dövrlərdə hakim olan ağıl mərkəzli peripatetik fəlsəfə XII əsrdən nisbətən zəifləməyə başlamış və yerini ağlın da müəyyən mənada ehtiva olunduğu yeni, fərqli epistemoloji paradiqmalara əsaslanan fəlsəfi sistemlərə vermişdir. Ortaya çıxdığı ilk dövrlərdə möhkəmlənməyə çalışdığı islam dünyasındakı hakim dini düşüncə (və ya vəhy) ilə daha çox ziddiyyətli nəzərəçarpan fəlsəfə bu yeni paradiqmalar sayəsində birinci ilə daha mütənasib formaya bürünmüşdür. İslam fəlsəfi fikrindəki bu təkamül prosesinin də apogeyini məhz Səfəvi dövrü fəlsəfəsi təşkil edir.

Paraqrafda Səfəvilər dövründə İsfahan məktəbi və Şirazi kimi fəlsəfi sistem yaradan filosofun mövcud olmasına əsaslanaraq islam dünyasında fəlsəfi düşüncənin süqutuna dair iddiaların həqiqəti əks etdirmədiyi nəticəsinə gəlinir.

**“Sədrəddin Şirazinin həyatı və əsərləri”** adlanan I fəslin ikinci paraqrafında Sədrəddin Şirazinin bioqrafiyası və əsas fəlsəfi əsərləri haqqında qısa arayış verilir.

Daha çox Molla Sədra adı ilə tanınan Məhəmməd ibn İbrahim ibn Yəhya əl-Qəvami əş-Şirazinin bioqrafiyası ilə bağlı müəyyən edilmişdir ki, filosofun həyatında baş verən, demək olar, bütün önəmli hadisələrin tarixi mübahisəlidir. Müasir qaynaqlar filosofun doğum tarixini 1571-1572 olaraq qeyd edir. İbtidai təhsilini doğulduğu Şiraz şəhərində alan Şirazi daha sonra təhsilini Qəzvin və İsfahanda davam etdirmişdir. Buradakı təhsilini başa vurduqdan sonra isə 1600-cü illərin əvvəlində Şiraza qayıdan Şirazinin qayıdışı uzun çəkmir, dəqiq məlum olmayan səbəblərdən filosof İranın Qum şəhəri yaxınlığında yerləşən Kəhək

Theology / W.M. Watt, – Edinburgh: Edinburgh University Press – 1985. – 175 p.

[31] Corbin, H. History of Islamic philosophy / H. Corbin, – London: In association with Islamic Publications for the Institute of Ismaili Studies, – 1993. – 365 p.

[32] Cooper, J. From al-Tusi to the School of Isfahan // History of Islamic Philosophy, – 2021, – p. 585-596.

kəndinə köçərək xəlvət həyatı yaşayır. 1613-cü ilə qədər bu kənddə yaşadığı bildirilən[33] Şirazi sonrakı tarixlərdə ömrünü əsasən səfərlərdə keçirmiş, 1630-cu ildə isə Şirazda qurulan Xan mədrəsəsinə dəvət alması ilə birdəfəlik bu şəhərə qayıtmışdır.

Şirazinin ölüm tarixi və dəfn olunduğu yer də dəqiq məlum deyil. Əksər qaynaqlarda filosofun ölüm tarixi və dəfn yeri 1640/1641-ci il Bəsrə olaraq göstərilsə də, 1635/1636-cı ildə Bəsrədə vəfat dən Şirazinin Nəcəfdə dəfn olunduğuna dair iddialar da mövcuddur.[34]

İkinci paraqrafda Şirazinin fəlsəfi və dini elmlərdəki müəllimləri və yetişdirdiyi tələbələr haqqında məlumat verildikdən sonra onun yaradıcılıq fəaliyyətindən bəhs olunur. Burada əllidən çox əsəri məlum olan Şirazinin rasional elmlərdən dini elmlərə qədər geniş sahəni əhatə edən əsərlərinin təsnifatı ilə bağlı fərqli fikirlər verildikdən sonra əsas fəlsəfi əsərləri haqqında qısa arayış verilir.

I fəslin **“Sədrəddin Şirazinin fəlsəfə anlayışı: hikmətül-mütəaliyə”** adlanan üçüncü paraqrafında isə Şirazinin banisi olduğu mütəaliyə (transsendent) fəlsəfə məktəbinin səciyyəvi cəhətlərindən, əsaslandığı epistemoloji prinsiplərdən, təsirləndiyi fəlsəfi cərəyanlar və filosoflardan bəhs olunur.

“Mütəaliyə fəlsəfəsi” (əl-hikmətül-mütəaliyə) ifadəsi Şirazinin ən önəmli fəlsəfi əsəri sayılan “Əsfarül-ərbəə”nin adında istifadə olunsa da, onun özü fəlsəfi sistemini belə adlandırmamışdır. “Mütəaliyə fəlsəfəsi” (əl-hikmətül-mütəaliyə) onun fəlsəfi sisteminə ardıcılları tərəfindən verilmiş bir addır.[35] Bu terminin mənası ilə əlaqəli fərqli fikirlər mövcud olsa da, əsas görüşə görə, Şirazi bu ifadəni spesifik bir mənada istifadə etmiş və bununla qaynağı Tanrı olan bir intellektual fəaliyyəti nəzərdə tutmuşdur.[36]

Şirazi dinlə fəlsəfə, ağılla vəhy arasında həqiqi ziddiyyət

---

[33] Rizvi, S.H. Mullā Ṣadrā Shīrāzī: His Life and Works and the Sources for Safavid Philosophy / S.H. Rizvi, – Oxford: Oxford University Press, – 2007. – s. 14

[34] Rizvi, S.H. Mullā Ṣadrā Shīrāzī: His Life and Works and the Sources for Safavid Philosophy / S.H. Rizvi, – Oxford: Oxford University Press, – 2007. – s. 30

[35] Nasr, S.H. Molla Sadra ve İlahi Hikmet / S.H.Nasr, terc. M.Armağan. – İstanbul: İnsan yayınları, – 2009. – s. 108

[36] الحاج حسن، ع. الحكمة المتعالية عند صدر المتعألهين الشيرازي / ع. الحاج حسن، – بيروت: دارالهادي، – 2005. – ص. 149

görməyərək bu iki bilik qaynağının bir-birinin tamamlayıcısı olduğunu düşünür. Buna görə də o, islam dünyasında mövcud olan məşşailik, işraqilik, təsəvvüf və kəlam kimi fərqli məktəblərin həqiqətin qaynağı olaraq gördüyü ağıl, intuitiv təcrübə və vəhy metodlarını birləşdirib yeni bir metod yaratmağa çalışmışdır. Bu yeni epistemoloji prinsiplər üzərində sistemini inşa etdiyi zaman Şirazi özünə qədərki elmi-fəlsəfi və dini mirasdan geniş istifadə etsə də, onun fəlsəfəsinə İbn Ərəbi, İbn Sina və Sührəvərdinin təsiri daha böyük olmuşdur.

Bu fəsildə əldə olunan nəzəri müddəalar "Səfəvilər dövründə intellektual elmlərin oyanışı: İsfahan məktəbi və Sədrəddin Şirazi"[37], "Sədrəddin Şirazinin fəlsəfi metodologiyası və qaynaqları"[38] adlı məqalələrimizdə əksini tapmışdır.

Dissertasiya işinin ikinci fəsli **"Nəfs-bədən probleminin mahiyyəti və tarixi"** adlanır. Üç paraqrafdan ibarət olan fəslin **"Nəfs-bədən probleminin mahiyyəti"** adlı birinci paraqrafında nəfs-bədən probleminin problematikası açıqlanaraq məsələnin fəlsəfi problem olaraq görülməsinin tarixindən bəhs olunur.

Günümüzdə idrak fəlsəfəsinin tədqiqat predmeti olan nəfs-bədən problemi adı altında bir çox fərqli problem müzakirə və tədqiq olunur. Müzakirə olunan problemin mahiyyəti isə bilavasitə nəfs-bədən probleminin əsasında dayanan iki əsas suala verilən cavablardan asılıdır. Bu suallardan biri nəfsin və ya ruhun təbiəti digəri isə bu varlığın bədənlə münasibəti ilə bağlıdır. Bu suallara fəlsəfə tarixində verilən cavabları ən ümumi formada iki qrupda təsnif etmək mümkündür: dualizm və monizm. Dualizm təbiətdə maddi və qeyri-maddi olmaqla, bir-birinə zidd iki fərqli substansiyanın var olduğunu iddia etməklə nəfs və bədənin bu zidd substansiyalardan təşkil olunduğunu qəbul edir. Monistlər isə kainatda yalnız bir cür substansiyanın var olduğunu qəbul edir. Bu yeganə substansiyanın təbiəti ilə bağlı fikirlərindən qaynaqlanaraq monizm də fizikalist və neytral monizm kimi fərqli növlərə ayrılır[39].

---

[37] Bağırov, İ. Səfəvilər dövründə intellektual elmlərin oyanışı: İsfahan məktəbi və Sədrəddin Şirazi // – Bakı: "Metafizika" jurnalı, – 2024. 7(3), s.41-58.

[38] Bağırov, İ. Sədrəddin Şirazinin fəlsəfi metodologiyası və qaynaqları // – Bakı: "Metafizika" jurnalı, – 2023. 6(2), – s. 96-109.

[39] Şirinov, A. Fəlsəfə tarixində ruh-bədən əlaqəsi problemi (qədimdən günümüzə) // – Bakı: Fəlsəfə və sosial-siyasi elmlər, – 2012. 33, №1, – s. 36-49.

Bu fərqli dünyagörüşlərini mənimsəyən qrupların qarşılaşdığı problem də bir-birindən fərqlidir. Klassik fəlsəfə kontekstində daha çox məşhur olan və Şirazinin də aid olduğu ruh fikrini mənimsəyən filosofların qarşılaşdığı əsas problem qeyri-maddi nəfs və maddi bədənin qarşılıqlı təsiri və ya birliyi problemidir. Əgər nəfs təbiətən bütün maddəyə aid xüsusiyyətlərdən məhrum qeyri-maddi varlıqdırsa, o zaman nəfs necə tamamilə maddədən təşkil olunmuş bir varlıq olan bədəndə ola, onunla əlaqəyə girə və ya birləşə bilir?

Bəzən Rene Dekartın adı ilə bağlansa da, bu problemin mahiyyət etibarilə tarixinin daha qədim olduğu,[40] qədim yunan filosoflarına qədər belə geri getdiyini deyə bilərik. Lakin Dekartın adının nəfs-bədən problemi ilə bağlı çox hallanması da təsadüfi deyildir. Belə ki, nəfs-bədən münasibətinin problem olaraq ortaya çıxmasına və qızğın müzakirələrə mövzu olmasına səbəb Dekartın mövzuya dair fikirləri olmuşdur. Buna baxmayaraq Dekartın müdafiə etdiyi fərqli substansiyalardan təşkil olunan nəfs və bədən bölgüsü qədim dövr və orta əsr fəlsəfəsində, eləcə də, islam fəlsəfəsində qəbul olunan əsas görüş olmuşdur.

İkinci fəslin **“Antik yunan fəlsəfi fikrində nəfs təsəvvürləri və nəfs-bədən problemi”** adlanan ikinci paraqrafında qədim yunan dünyasında fəlsəfə öncəsi və sokrataqədərki dövrdə mövcud olan nəfs təsəvvürləri tədqiq edilərək, üç böyük yunan filosofunun – Platon, Aristotel, Plotin – mövzuya dair fikirləri öyrənilmişdir.

Fəlsəfə öncəsi yunan dünyasındakı nəfs təsəvvürünü xarakterizə edən Homer mətnlərindəki nəfs və ya ruh (psyche/psixeya) təsəvvürü bu gün fəlsəfədə başa düşülən mənada bir nəfs anlayışını ifadə etmir. Buradakı ruh “kölgə varlıq” və ya insanın xarici formasına bənzəyən xəyali bir surəti ifadə edirdi[41] ki, bu da insanın nə canlı, nə də şüurlu olmasını təmin edirdi. İlk yunan filosoflarına gəldikdə isə nəfsin həyatın qaynağı hesab edildiyini görürük. Bu filosoflardan Anaksimen,

---

[40] Lagerlund, H. Introduction: The Mind/Body Problem and Late Medieval Conceptions of the Soul // – Dordrecht: Forming The Mind: Essays on the Internal Senses and the Mind/Body Problem from Avicenna to the Medical Enlightenment, ed. Henrik L. – London and New York, – 2007. – pp. 1-15.

[41] Rohde, E. Psyche Yunanlarda Ruhlar Kültü ve Ölümsüzlük İnancı / E.Rohde, Çev. Özgüç Orhan. – İstanbul: Pinhan Yayıncılık, – 2020. – s. 53-54

Parmenid, Heraklid, Ksenofan və Zenon kimi bir çoxları[42] nəfsi hava, od, torpaq və su kimi maddi ünsürlərlə assosiasiya etməklə əsasən materialist xarakterli fikirləri mənimsələsələr də, Pifaqor nəfsin qeyri-maddi olması qənaətində idi.

Bu və digər sokrataqədərki yunan filosoflarının fikirləri müzakirə edildikdən sonra bu paraqrafda müvafiq olaraq Platon, Aristotel və Plotinin fikirləri öyrənilir. Müəyyən edilir ki, bu yunan filosoflarının mövzuya dair fikirləri daha dəqiq və təfərrüatlı olmuşdur. Dualizmi fəlsəfi arqumentlərlə müdafiə edən Platon nəfsi bədəndən ayrı, mücərrəd varlıq hesab edirdi. Nəfsin bədəndən öncə var olduğuna inanan Platona görə, bədən kimi mürəkkəb varlıq olmadığı üçün nəfs bədənin ölümü ilə yox olmur və fərqli bədənlərdə mövcud olmağa davam edir.

Sistematik psixologiyanın qurucusu hesab edilən tələbəsi Aristotel isə Platonun nəfs anlayışına qarşı çıxır. Nəfs və bədəni materiya və forma kimi yeganə substansiyanın ayrılmaz elementləri hesab edən Aristotelə görə, nəfs *"orqanlara sahib təbii bir cismin ilk mükəmməlliyidir"*[43]. Plotin isə nəfsi mütləq mücərrəd və mütləq maddi aləm arasında ortaq xüsusiyyətlərə sahib ara varlıq hesab etsə də, nəfsi ilahi aləmə aid, ruhlar aləmindən maddi dünyaya enmiş hesab edərək onu maddi bədəndən ayırır və Aristotelin hilomorfizminə, eləcə də yunan materializminə qarşı çıxaraq mahiyyət etibarilə Platonun dualizmini mənimsəyir.

İkinci fəslin **"Klassik dövr islam fəlsəfəsində nəfs təsəvvürləri və nəfs-bədən problemi"** adlanan üçüncü paraqrafında isə islam filosoflarının mövzuya dair fikirləri tədqiq olunaraq Sədrəddin Şiraziyə qədər islam dünyasında nəfs-bədən münasibəti haqqında mövcud olan əsas yanaşmalar öyrənilir.

Bu məqsədlə paraqrafda peripatetik filosoflardan Kindi, Fərabi, İbn Sina, işraqi filosoflardan Sührəvərdi və sufi mütəfəkkir İbn Ərəbinin fəlsəfi görüşləri tədqiqata cəlb edilmişdir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, islam dünyasında yaranan ilk fəlsəfi cərəyanın, peripatetizmin nümayəndələri olan Kindi, Fərabi və İbn Sinaya görə insan qeyri-maddi nəfs və maddi bədəndən təşkil olunmuş mürəkkəb bir varlıqdır. Onlara görə, nəfs Aristoteldə gördüyümüz kimi sadəcə bədənin

[42] Barnes, J. The Presocratic Philosophers / J. Barnes. – London and New York: Routledge, – 2001. – s. 472
[43] Aritoteles. Ruh Üzerine /. terc. Ö.Aygün, Y.G.Sev, – İstanbul: Pinhn, – 2019. – s. 89

maddi forması deyil. Mənşəyi baxımından maddədən fərqli substansiyadan təşkil olunan nəfs mücərrəd varlıq olduğu üçün bədəndən sonra da varlığını davam etdirəcək. Nəfsin tərifi, funksiyaları, növləri kimi məsələlərə dair fikirlərində Aristotelə yaxın mövqedən çıxış etmələrinə baxmayaraq, müsəlman peripatetiklər nəfsin müstəqil şəkildə var ola bilən bir varlıq olduğunu düşündükləri üçün platonçu dünyagörüşünə daha yaxındırlar və dualizmi təmsil edirlər.

Sührəvərdi və İbn Ərəbiyə gəldikdə onların da zahirən dualist olduğunu iddia etmək olar. Belə ki, Sührəvərdiyə görə, nəfs nurani, mücərrəd və müstəqil varlıqlar kateqoriyasına aid olduğu üçün bədənin aid olduğu material dünyadan ayrıdır.[44] Eyni zamanda İbn Ərəbi də nəfsi bədəndən mənşəyi baxımından fərqli hesab edir.[45] Buna baxmayaraq, bu iki mütəfəkkirin nəfslə bədəndən təşkil olunmuş insanı ontoloji baxımdan yeganə bir varlıq hesab etdiyini nəzərə alsaq, onların peripatetiklər kimi həqiqi dualist olmadıqlarını, spiritual monizmi təmsil etdiklərini deyə bilərik.

Bu fəsildə əldə olunan nəzəri müddəalar "Platon və Aristotelin nəfs və onun bədənlə olan münasibətinə dair düşüncələri"[46], "Klassik dövr islam fəlsəfəsində nəfs nəzəriyyələri: Kindi (800-870), Fərabi (873-950) və İbn Sina (980-1037) nümunəsi",[47] "Antik yunan düşüncəsində ruh/nəfs-bədən problemi: fəlsəfə öncəsi və presokratik dövr"[48], "Suhrawardi and Ibn Arabi on the Soul and Its Relation to the Body",[49]

[44] Lopez-Farjeat, L.X. Classical Islamic Philosophy: a thematic introduction / L.X. Lopez-Farjeat, – New York: Routledge, – 2022. – s. 218

[45] İbn Arabi, M. Özün Özü (Lübbül-Lübb) / M. İbn Ərəbi, terc. İ.H. Bursevi, – İstanbul: Bahar Yayınları, – 2000. – 122 s.

[46] Bağırov, İ. Platon və Aristotelin nəfs və onun bədənlə olan münasibətinə dair düşüncələri // – Bakı: Din araşdırmaları, – 2023. 1 (10), – s. 161-181.

[47] Bağırov, İ. Klassik dövr islam fəlsəfəsində nəfs nəzəriyyələri: Kindi (800-870), Fərabi (873-950) və İbn Sina (980-1037) nümunəsi // – Gəncə: Xəbərlər məcmuəsi, – 2023. 5 (9), – s. 242-252.

[48] Bağırov, İ. Antik yunan düşüncəsində ruh/nəfs-bədən problemi: fəlsəfə öncəsi və presokratik dövr // – Bakı: Gənc tədqiqatçı jurnalı, – 2023, № 4, – s. 142-149.

[49] Baghirov, I. Suhrawardi and Ibn Arabi on the Soul and Its Relation to the Body // ICSAS 2nd International Conference on Humanity and Social Sciences, – Erzurum: Academy Global Publishing House, –19 - 21 April, – 2024, – p. 126-136.

“Əbu Nəsr Fərabi ət-Türki (873-950) və ruhun ölümsüzlüyü məsələsi”[50] adlı məqalə və tezislərdə öz əksini tapmışdır.

**“Sədrəddin Şirazi fəlsəfəsində nəfs-bədən problemi”** adlı III fəsil də üç paraqrafdan ibarətdir. **“Şirazidə elmun-nəfs (psixologiya) və əsaslandığı prinsiplər”** adlı birinci paraqrafda Sədrəddin Şirazinin fəlsəfi psixologiyaya ümumi yanaşması, bu baxımdan onu digər filosoflardan ayıran cəhətlər, onun nəfs konsepsiyasının əsasında dayanan “varlığın əsilliyi” və “substantiv hərəkət” prinsipləri tədqiq olunur.

Sədrəddin Şirazi digər islam filosoflarından fərqli olaraq, psixologiyanı təbiət fəlsəfəsinin deyil, metafizikanın bir qolu kimi qəbul edir.[51] Bu baxımdan ümumi fəlsəfəsinin əsasında dayanan prinsiplər onun nəfsə dair fikirlərinin də əsasını təşkil edir. Bu prinsiplərdən ən önəmlisi “varlığın əsilliyi” anlayışıdır. Şiraziyə görə, kainatda mövcud olan bütün varlıqlar yeganə obyektiv gerçəklik olan tək vücudla mövcuddurlar. Maddi, xəyali (nəfsani) və əqli olmaqla, üç fərqli varlıq aləminin olmasına baxmayaraq, bu varlıq aləmləri mahiyyət baxımından fərqlənsələr də, varlıq baxımından eynidirlər. Mahiyyətlər zehin tərəfindən yaradılan şərti anlayışlar olduğu üçün eksternal (xarici) gerçəkliyə sahib deyillər. Buna görə də mahiyyət baxımından ortaya çıxan fərqlilik var olanların varlıq baxımından birliyinə xələl gətirmir. İnsan nəfsləri də bu fərqli varlıq formalarını öz yeganə varlığında birləşdirir.[52] Bu fərqli varlıq formalarının nəfs tərəfindən aktuallaşdırılması isə substantiv hərəkət sayəsində mümkün olur. Substantiv hərəkət nəzəriyyəsinə görə, maddi dünyada statik heç bir şey mövcud deyil. Bütün maddi varlıqlar dinamik təbiətə sahib olub yarandıqları ilk andan mütəmadi olaraq dəyişib yenilənirlər. Bu mütəmadi dəyişib-yenilənmə xüsusiyyəti də əşyalara sonradan verilən

---

[50] Bağırov, İ. Əbu Nəsr Fərabi ət-Türki (873-950) və ruhun ölümsüzlüyü məsələsi // “Müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş nöqtəsi – Türkiyə Cümhuriyyəti” mövzusunda Beynəlxalq Elmi Konfrans, – Bakı: “Elm”, – 2024, – s. 87-88.

[51] شيرازى، ص. الحكمة المتعالية في الاسفار الاربعة العقلية: [ في 9 مجلد] / ص. شيرازى، تح. ع.ا. رشاد – تهران: بنياد حكمت اسلامى صدرا،– ج. 8. – 1383. – 631 ص .

[52] شيرازى، صدرالدين. الحكمة المتعالية في الاسفار الاربعة العقلية: [ في 9 مجلد] / صدرالدين. شيرازى، تحق. رضا اكبريان، – تهران: بنياد حكمت اسلامى صدرا،– ج. 9. – 1382. –ص. 271-272

ikinci dərəcəli bir qabiliyyət deyil. Şiraziyə görə, maddi təbiətin mövcud olması hərəkətli olması ilə eyni şeydir.[53]

Üçüncü fəslin **"Şirazinin nəfs anlayışı: cismani substansiyanın ruh məzmunu qazanması"** adlı ikinci paraqrafında Şirazinin "yaradılışca cismani, qalışca ruhani" nəfs nəzəriyyəsi tədqiq edilərək, bu kontekstdə nəfsin varlığının isbatı, tərifi, yaranması, mücərrədliyinin isbatı kimi mövzular öyrənilir.

Sədrəddin Şirazinin nəfs anlayışı ona qədərki filosofların nəfs anlayışından ciddi şəkildə fərqlənir. O nə Platonun nəfsin bədəndən öncə mövcud olduğu fikrini, nə də İbn Sina kimi dualistlərin qəbul etdiyi yaranışından mücərrəd varlıq olan nəfs anlayışını qəbul edir. Şiraziyə görə, nəfs bədənlə birlikdə maddi forma olaraq yaranır.[54] Bu baxımdan Aristotelin nəfsi üzvi bədənin ilk mükəmməlliyi hesab edən tərifini qəbul edən filosof nəfsin ilk yarandığı dövrdə heç bir mücərrədlik ehtiva etmədiyini bildirir. Buna baxmayaraq, ona görə nəfs adi maddi varlıq olaraq qalmayıb substantiv hərəkət vasitəsilə təkamül edərək mərhələli şəkildə mücərrədləşib ruh məzmunu qazanır. Mücərrəd varlıq olan düşünən nəfs mərtəbəsinə qədər insan nəfsi bitki və heyvan mənşəli nəfs mərtəbələrini qət edir.[55] Bitki mənşəli nəfsi mücərrəd hesab etməyən filosof peripatetiklərdən fərqli olaraq, heyvan nəfslərini də xəyali mücərrədliyə sahib olduqları üçün ölümsüz hesab edir. İnsan nəfslərinin mücərrədliyi məsələsində isə o, demək olar, peripatetik filosoflarla eyni fikirdədir. Təsadüfi deyil ki, insan nəfslərinin mücərrədliyinə dair gətirdiyi arqumentlər əsasən İbn Sinanın əsərlərində təqdim etdiyi arqumentlərdən ibarətdir.

Üçüncü fəslin **"Şiraziyə görə nəfs-bədən münasibəti və qarşılaşdığı problem"** adlanan son paraqrafında isə Şirazinin nəfslə bədənin münasibətinə dair fikirləri müəyyən edilərək nəfs-bədən problemi kontekstində dəyərləndirilir.

---

[53] شاوردی، زینب،؛ کوچنانی، قاسم علی. محرک غیرمتحرک از منظر ملاصدرا // فلسفه و کلام اسلامی، – 1399، 53(2)، ص. 427

[54] Şirazi, S. Arşa Ait Hikmetler / S. Şirazi, terc. Fevzi Yiğit, – İstanbul: Önsöz Yayıncılık, – 2022. – s. 48

[55] شیرازی، ص. الحكمة المتعالية في الاسفار الاربعة العقلية: [ في 9 مجلد] / ص. شیرازی، تح. ع.ا. رشاد – تهران: بنیاد حکمت اسلامی صدرا،– ج. 8. – 1383. – ص. 156-157

Sədrəddin Şiraziyə görə, nəfsin maddi bədənə bağlılığı yaranışı baxımındandır. Substantiv hərəkətlə mücərrədliyə doğru təkamül edib ruh məzmunu qazandıqdan sonra onun maddi bədənə olan bu bağlılığı aradan qalxır.[56] Lakin burada söhbət ümumiyyətlə bədəndən getmir, sırf maddi bədəndən gedir. Maddi bədəndən mücərrədləşməsi nəfsin bədənsiz qalması mənasına gəlmir. Ona görə, nəfsin həqiqi bədəni varlığındakı fərqli funksiyalar icra edən gücləridir. Bu güclər də nəfsin mövcud olduğu varlıq mərtəbəsinə müvafiq olaraq formalaşır. Əgər nəfs maddi mərtəbədədirsə, onun bədəni də maddi, xəyali-mücərrəd mərtəbədədirsə, bədəni də xəyali, əqli mərtəbədədirsə, bədəni də əqli mücərrəd mahiyyətə sahib olur.[57] Bu bədən nəfsdən ayrı bir varlığa sahib olmayıb yeganə bir ontoloji həqiqət olan insan varlığının dərəcə baxımından aşağı mərtəbəsini təşkil edir. Beləliklə, nəfslə bədən əslində iki ayrı varlıq yox, ontoloji baxımdan bir şeydirlər. Nəfslə bədəni ayrı varlıqlar hesab etmədiyi üçün Şirazinin nəfs konsepsiyası monist kateqoriyaya aiddir. Bu baxımdan da dualizmə aid olan nəfs-bədən problemi ilə qarşılaşmır.

Buna baxmayaraq, qeyd etmək lazımdır ki, Şirazi bu nəfs konsepsiyası ilə İbn Sina və Dekart kimi dualist filosofların qarşılaşdığı nəfs-bədən problemini həll etmir. Belə demək daha doğru olar ki, o bu problemdən yayınmaq üçün fərqli nəfs-bədən anlayışı ortaya qoyur.

Bu fəsildə əldə olunan nəzəri müddəalar "Sadraddin Shirazi's Corporeal Originated and Spiritual Subsisted Soul Concept as an Answer to The Mind-Body Problem"[58], "On the Origin of Human Souls: The Case of Ibn Sina (Avicenna) and Mullah Sadra (Sadraddin Shirazi)",[59]

---

56 شيرازى، ص. الحكمة المتعالية في الاسفار الاربعة العقلية: [ في 9 مجلد] / ص. شيرازى، تح. ع.ا. رشاد – تهران: بنياد حكمت اسلامى صدرا،– ج. 8. – 1383. – ص. 380

57 گرجيان، محمدمهدى ؛ رودگر، نرجس. سه اقليم بدن؛ بررسى مقايسه‌اى معاد جسمانى از منظر صدرالمتألهين و آقا على حكيم (مدرس زنوزى) // قبسات، – شماره 58، – ص. 85-114.

58 Baghirov, I. Sadraddin Shirazi's Corporeal Originated and Spiritual Subsisted Soul Concept as an Answer to The Mind-Body Problem // Перспективи. Соціально-політичний журнал – 2024, № 1, – p. 23-32.

59 Baghirov, I. On the Origin of Human Souls: The Case of Ibn Sina (Avicenna) and Mullah Sadra (Sadraddin Shirazi) // Akademik Tarih ve Düşünce Dergisi, – 2024, 11 (5), – p. 3575-3585.

“Sədrəddin Şirazinin nəfs konsepsiyası”[60], “İslam fəlsəfəsində elmun-nəfs (psixologiya): Sədrəddin Şirazinin görüşü”[61], “Molla Sadra ve ruh-beden problemi”[62], “Sadreddin Şirazi reenkarnasyonun geçersizliği üzerine”[63] adlı məqalə və tezislərdə əksini tapmışdır.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqat işinə yekun vurularaq gəlinən qənaətlər ümumiləşdirilir və aşağıdakı əsas nəticələr qeyd edilir:

1. Sədrəddin Şirazi nəfsi “orqanları olan təbii bədənin ilk mükəmməlliyi” hesab edən Aristotelin tərifini qəbul etsə də, ona görə nəfs nə Aristotelin qəbul etdiyi kimi adi bir maddi forma, nə bəzi sokrataqədərki filosofların inandığı kimi od, hava və ya buxar kimi lətif bir cisim, nə də İbn Sina kimi dualistlərin iddia etdiyi kimi yaranışından sırf mücərrəd-bəsit varlıq olan bir substansiyadır. O, nəfsi varlığının başlanğıcından sonuna qədər fərqli varlıq formaları ehtiva edən dinamik bir təbiətə sahib hesab edir. Şiraziyə görə, nəfs “yaradılışca cismani, qalışca ruhani” bir varlıqdır. İlk yarandığı zaman nəfs aktual olaraq heç bir ruhanilik kəsb etməyən, ancaq potensial olaraq ruha təkamül etmək gücünə sahib maddi bir substansiyadır. Substantiv hərəkətə sahib olduğu üçün bu maddi nəfs mərhələli şəkildə özündəki ruhanilik potensialını aktuallaşdıraraq təkamülünün sonunda ruh məzmunu qazanır. Ruha çevrildiyi zaman fiziki bədəndən müstəqil şəkildə var olmaq gücünə sahib olduğu üçün ölümsüzlük əldə edir.

2. Sədrəddin Şirazinin nəfs anlayışı kimi, bədən anlayışını da özünəməxsus hesab etmək olar. Aristotelin verdiyi nəfs tərifini təhlil etdiyi zaman gördük ki, o, tərifdə bədəni təşkil edən fərqli əzaları nəzərdə tutan orqanları nəfsin təbiətindəki güclər kimi şərh edir. Ona görə, nəfsin

---

[60] Bağırov, İ. Sədrəddin Şirazinin nəfs konsepsiyası // “Metafizika” Jurnalı – 2023, 6 (4), s. 47-64.

[61] Bağırov, İ. İslam fəlsəfəsində elmun-nəfs (psixologiya): Sədrəddin Şirazinin görüşü // “Vətəni sevməyən insan olmaz” mövzusunda Respublika elmi konfransı, – Bakı: “AFPoliqrAF”, – 2024, – s. 352-356.

[62] Bağırov, İ. Molla Sadra ve ruh-beden problemi // Beysehir Selcuklu 1st International Conference on Humanity and Social Sciences, – Beysehir: Academy Global Publishing House, – 27-29 October, – 2023, – s. 492.

[63] Bağırov, İ. Sadreddin Şirazi reenkarnasyonun geçersizliği üzerine // International Marmara Scientific Studies Congress, – Istanbul: ASES Publications, – 22-23 July, – 2024, – s. 197-198.

həqiqi bədəni onun varlığının tərkib hissəsi olan və fərqli funksiyalar icra etməsini təmin edən güclərdir. Bu güclərə əsasən nəfs olduğu varlıq aləminə müvafiq konkret bədənə sahib olur: maddi aləmdə maddi, fiziki; xəyali aləmdə xəyali; əqli aləmdə isə əqli, mücərrəd. Bu baxımdan o, nəfsin heç bir varlıq aləmində bədənsiz olmadığını və nəfs-bədən əlaqəsinin təbii, ayrılmaz əlaqə olduğunu düşünür.

3. Şirazi əsərlərində insanın nəfs və bədən olaraq iki şeydən mürəkkəb olduğunu göstərən ifadələr işlətsə də, ona görə nəfslə bədən arasında həqiqi dualizm yoxdur. Nəfslə bədən insan varlığının varlığın şiddəti baxımından fərqli dərəcələrdə olan mərtəbələridir. Ona görə, qeyri-maddi substansiya olan nəfslə maddi bədənin birləşib vahid növ olan insanı meydana gətirməsi mümkün deyil. Buna müvafiq olaraq o, nəfsin fiziki bədənlə birlikdə olmasının nəfsin öz yaranışında maddi olması sayəsində mümkün olduğunu iddia edir. Ölüm gerçəkləşənə qədər nəfs müəyyən mücərrədlik səviyyəsinə çatsa da, tam mücərrədləşmir və beləliklə maddi əlaqəsi sayəsində bədənlə birliyi mümkün olur. Ölüm gerçəkləşəndə isə nəfs tam mücərrədləşir və dünyəvi bədəndən müstəqil substansiyaya çevrilir. Ona görə bədən və nəfs iki müstəqil substansiya olmayıb, insan varlığının fərqli mərtəbələri olduğu üçün onun fəlsəfi psixologiyası dualizmdənsə monizmə daha uyğundur. Nəfslə bədənin birliyini təmin edən amil varlıq olduğu üçün onun monizmini "eksistensial monizm" adlandırmaq olar.

4. Sədrəddin Şirazi nəfslə bədənin ontoloji birliyini müdafiə etdiyi üçün onun fəlsəfəsi kontekstində substantiv dualizm üçün səciyyəvi olan maddi bədən və qeyri-maddi ruhun əlaqəsinin imkansızlığına əsaslanan nəfs-bədən problemindən bəhs etmək doğru deyil. Başqa sözlə, Şirazi sözügedən nəfs-bədən problemi ilə qarşılaşmır. Digər tərəfdən, həmin problemi doğuran nəfslə bədənin zidd substansiyalardan ibarət olmasıdır. Lakin, Şiraziyə görə, nəfsin bədəni keyfiyyət olaraq onun dayandığı varlıq mərtəbəsinə müvafiq formada mövcud olur. Əgər nəfs maddi mərhələdədirsə, bədəni də maddi, ruhani mərhələdədirsə, bədəni də ruhani məzmuna sahib olur. Beləliklə, nəfs birlikdə və ya münasibətdə olduğu bədənin təbiətinə zidd mahiyyətə sahib olmadığı üçün ziddiyyət meydana gəlmir.

5. Sədrəddin Şirazinin bu gün idrak fəlsəfəsində müzakirə olunan maddi bədənlə qeyri-maddi nəfsin əlaqəsinin imkansızlığına əsaslanan

nəfs-bədən problemini həll edib-etməməsi məsələsinə gəldikdə bunu birmənalı şəkildə söyləmək qənaətimizə görə doğru deyil. Çünki Sədrəddin Şirazi bu iki zidd substansiyanın münasibətini mümkün edən bir həll yolu təklif etməkdən çox problemdən yayınmağa imkan verən yeni bir nəfs konsepsiyası irəli sürür. Daha dəqiq desək, maddi bədənlə birliyinin mümkün olması üçün yaranışında nəfsin qeyri-maddiliyini inkar edir. Beləliklə də insanı meydana gətirən hər iki komponent maddi olduğu üçün problem meydana çıxmır. Bu isə maddi bədənlə mücərrəd nəfsin əlaqəsini və ya birliyini izah etmək yox nəfsin mücərrədliyini inkar etməkdir. Yəni nəfsin mücərrədliyini qəbul edənlər üçün problem öz aktuallığını qoruyur. Təsadüfi deyil ki, nəfsin yaranışda maddi olduğunu iddia etməklə yanaşı, sonradan mücərrədləşib ruha çevrildiyini qəbul etdiyi üçün Şirazi fəlsəfəsində də bənzər problem meydana gəlir. Maraqlıdır ki, yarandığı zaman bədənlə birliyini mümkünsüz edəcəyi üçün nəfsin mücərrədliyini inkar edən Şirazi sonradan mücərrədləşən nəfsin bədənlə birliyini paradoksal hesab etmir.

**Dissertasiyanın əsas müddəaları və əldə edilmiş nəticələr müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Platon və Aristotelin nəfs və onun bədənlə olan münasibətinə dair düşüncələri // – Bakı: Din araşdırmaları, – 2023. 1 (10), – s. 191-212.
2. Sədrəddin Şirazinin fəlsəfi metodologiyası və qaynaqları // – Bakı: “Metafizika” jurnalı, – 2023. 6 (2), – s. 96-109.
3. Əbu Nəsr Fərabi ət-Türki (873-950) və ruhun ölümsüzlüyü məsələsi // “Müsəlman Şərqinin çoxəsrlik tarixində dönüş nöqtəsi – Türkiyə Cümhuriyyəti” mövzusunda Beynəlxalq Elmi Konfrans, – Bakı: “Elm”, – 2023, – s. 87-88.
4. Molla Sadra ve ruh-beden problemi // Beysehir Selcuklu 1st International Conference on Humanity and Social Sciences, – Beysehir: Academy Global Publishing House, – 27-29 October, – 2023, – s. 492.
5. Sədrəddin Şirazinin nəfs konsepsiyası // “Metafizika” Jurnalı – 2023, 6 (4), s. 47-64.
6. Klassik dövr islam fəlsəfəsində nəfs nəzəriyyələri: Kindi (800-870), Fərabi (873-950) və İbn Sina (980-1037) nümunəsi // –

Gəncə: Xəbərlər məcmuəsi, – 2023. 5 (9), – s. 242-252.

7. Antik yunan düşüncəsində ruh/nəfs-bədən problemi: fəlsəfə öncəsi və presokratik dövr // – Bakı: Gənc tədqiqatçı jurnalı, – 2023, № 4, – s. 142-149.
8. "Səfəvi renessansı" və Sədrəddin Şirazi // "Qədim və müasir Şərq: mənbələr, tədqiqatlar, perspektivlər" mövzusunda Beynəlxalq Elmi Konfrans, – Bakı: "Elm", – 2023, – s. 135.
9. Sadraddin Shirazi's Corporeal Originated and Spiritual Subsisted Soul Concept as an Answer to the Mind-Body Problem // Перспективи. Соціально-політичний журнал – 2024, № 1, – p. 23-32.
10. Suhrawardi and Ibn Arabi on the Soul and Its Relation to the Body // ICSAS 2nd International Conference on Humanity and Social Sciences, – Erzurum: Academy Global Publishing House, –19 - 21 April, – 2024, – p. 126-136.
11. İslam fəlsəfəsində elmun-nəfs (psixologiya): Sədrəddin Şirazinin görüşü // "Vətəni sevməyən insan olmaz" mövzusunda Respublika elmi konfransı, – Bakı: "AFPoliqrAF", – 2024, – s. 352-356.
12. Sadreddin Şirazi reenkarnasyonun geçersizliği üzerine // International Marmara Scientific Studies Congress, – Istanbul: ASES Publications, – 22-23 July, – 2024, – s. 197-198.
13. Səfəvilər dövründə intellektual elmlərin oyanışı: İsfahan məktəbi və Sədrəddin Şirazi // – Bakı: "Metafizika" jurnalı, – 2024. 7(3), s.41-58.
14. On the Origin of Human Souls: The Case of Ibn Sina (Avicenna) and Mullah Sadra (Sadraddin Shirazi) // Akademik Tarih ve Düşünce Dergisi, – 2024, 11 (5), – p. 3575-3585.
15. Nəfs-bədən problemi: "təzadlı dördlük" və onun Sədrəddin Şirazi perspektivindən həlli // – Bakı: History of Science jurnalı, – 2025, 6 (1), s. 126-136.
16. Plotin və Platonun ölümsüz ruh fikrinə qayıdış // "Bilim. Üüretim. Kultura" halklararası bilim-praktika konferenţiyası, – Komrat: Tipografie A&V Poligraf SRL, – 11 Fevral, – 2025, – s. 570-573.

Dissertasiyanın müdafiəsi ___15 sentyabr___ 2025-ci il tarixində saat 11:00 - da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03 – Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Ünvan: Bakı şəhəri, Yasamal rayonu Məhəmməd Naxçıvani küçəsi 29, AZ1065.

Tel: 012 436 77 66 E-mail: info@ait.edu.az.

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___04___ ___iyul___ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.07.2025

Kağızın formatı: A5

Həcm: 45001

Tiraj: 100